# Peyvənd olunmaq bizim vətəndaşlıq borcumuzdur

## Əvvəllər illərlə vaxt sərf edilən iş indi beş-altı aya da başa gəlir

***Statistikaya əsasən, dünyada COVID – 19 infeksiyasına yoluxma sayı 213 milyon, xəstəlikdən vəfat edənlərin sayı isə təxminən 4,45 milyondur. Dünya üzrə gündəlik yoluxma sayı 700 mindən çoxdur. Ən çox yoluxma qeydə alınan ölkələr arasında ABŞ, Hindistan və Braziliyanın adları çəkilir. Azərbaycanda da son günlər COVID – 19 - a yoluxmada kəskin artım müşahidə edilir. Nazirlər Kabineti yanında operativ qərargahın brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) departament müdiri Yaqut Qarayeva deyib ki, artım dinamikasında diqqət yetirilməli məqam yoluxma əmsalıdır. Əgər avqustun əvvəlində ölkədə koronavirusa yoluxma əmsalı 7 faizə yaxın idisə, indi bu göstərici 23 faizdir və bu son 20 gün ərzində ciddi artımdır.***





Departament müdiri diqqətə çatdırıb ki, hazırda ölkədə 18 pandemiya müəssisəsi fəaliyyət göstərir. Onların 11- i Bakı, Abşeron və Sumqayıtda, 7- si isə regionlarda yerləşir. Bundan başqa, ölkədə ehtiyat tibb müəssisələri mövcuddur. Belə tibb müəssisələrinin mövcudluğu bizi arxayın etməməlidir və istənilən halda, biz bütün qaydalara ciddi şəkildə riayət etməliyik. Çünki həmin tibb müəssisələrinin əksəriyyəti rayon mərkəzi xəstəxanalarıdır. Əgər həmin xəstəxanalarda yalnız COVID xəstələri qəbul edilərsə, əhalinin normal tibbi ehtiyaclarını ödəməkdə çətinlik yaranar. Çünki insanların xəstəliklə bağlı müxtəlif orqanlarından şikayəti həmişə olub və onlar istər ambulator, istərsə də stasionar qaydada müalicə alaraq sağlamlıqlarına qovuşublar.

Hazırda Azərbaycanda koronavirus infeksiyasının “Delta” ştammı daha sürətlə yayılır. Virus infeksiyalarında mutasiyalar baş verdikdə infeksiya mövsümi xarakter daşıyır. Respublikada hazırkı epidemioloji vəziyyətə səbəb də məhz koronavirusun “Delta” ştammıdır. Digər ştammlarla müqayisədə “Delta” ilə yoluxma zamanı xüsusi kliniki fərqlər müşahidə edilmir. Yalnız yoluxma sürəti böyükdür. Pandemiya başlayanda xəstə insanın kontaktda olduğu 5 nəfəri yoluxdurduğu deyilirdisə, “Delta” ştammının 1 nəfərdən 10-dan çox insana keçdiyi sübut olunub. Hətta bəzi tədqiqatçıların fikrincə, bu rəqəm qızılcada olduğu kimi ətrafında olan 18 nəfəri yoluxdurma gücünə malikdir. Rəsmi məlumata əsasən, hazırda Azərbaycanda koronavirus infeksiyası ilə xəstələnənlərin 94 faizi “Delta” ştammına yoluxub.

Operativ qərargahın brifinqində Y.Qarayeva peyvəndlər barədə danışarkən deyib ki, Azərbaycanda COVID – 19 infeksiyası əleyhinə 4 növ peyvənddən istifadə edilir. Hər bir vaksin preparatının effektivliyi istehsalçı şirkətlərin həmin peyvəndləri Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) təqdim etdiyi vaxtdan məlumdur. Yəni, vaksinlərin səmərəliliyi ilə əlaqədar göstəricilər ictimaiyyətə məlumdur, bu rəqəmlər heç vaxt gizli saxlanılmayıb. Ümumiyyətlə, tarix boyu istifadə edilən vaksinlərin heç birinin müsbət təsiri 100 faiz olmayıb. Əsas odur ki, bu gün COVID – 19 əleyhinə vurulan peyvəndlərin effektivlik faizi ÜST tərəfindən qoyulan tələblərə uyğundur. Qeyd edək ki, Azərbaycanda koronavirus əleyhinə “CoronaVac”, “AstraZeneca”, “Sputnik V” və “Pfizer” peyvəndlərindən istifadə edilir. O, həmçinin bildirib ki, COVID – 19 infeksiyası əleyhinə istifadə edilən Çinin “CaronaVac” peyvəndi təhlükəsiz və effektivdir. Azərbaycan “CoronaVac” vaksinindən kütləvi şəkildə istifadə edir. Y.Qarayeva deyib: “Guya, həmin peyvənd effektsiz olduğu üçün 3- cü doza vaksinasiyada “Pfizer”dən istifadə edilməsi fikri yanlışdır. Şəxsən mən 3- cü doza üçün də həmin peyvəndi vurdurmuşam. Bu, mənim seçimimdir. Bir sıra tibb işçiləri isə “Pfizer” vaksini vurdurublar. Yəni, seçim sərbəstdir. Peyvəndlərin təhlükəsizliyi ilə əlaqədar heç bir narahatlığa əsas yoxdur. Təlimatlara nəzarət edilir və vaksinasiya prosesində iştirak edən tibb işçiləri yalnız təlimatlandırıldıqdan sonra işə cəlb edilirlər”.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı twitter hesabındakı paylaşımda bildirib ki, uzun illərdən sonra ilk dəfə ölkəmizdə vaksin yaradılması, COVID – 19 daxil olmaqla, infeksion xəstəliklərə qarşı yeni mübarizə tədbirlərinin işlənib hazırlanması, diaqnostikası, kimyəvi terapiyası üçün hüceyrə kulturası tədqiqatlarına start verilib.



Vətəndaş olaraq ümid edək ki, tədqiqatların nəticəsi müsbət olacaq və ölkəmizdə vaksin istehsalına başlanacaq.

Professor Akif Qurbanov mövcud vəziyyət barədə deyib ki, hazırda bütün dünyada COVID – 19 infeksiyası ilə əlaqədar vəziyyət çox gərgindir, ayrı-ayrı ölkələrdə yeni antirekordlar qeydə alınır. Virusun mutant ştammları – “Alfa”, “Beta”, “Qamma”, “Delta”nın ümumi bir xüsusiyyəti yoluxma qabiliyyətinin artmasıdır. O deyib: “Bir neçə həftə bundan əvvəl ölkəmizdə epidemioloji vəziyyət kifayət qədər sabitləşmişdi, yoluxma statistikası iki-üç rəqəmli idi. Bunu nəzərə alan operativ qərargah yumşalma barədə qərar qəbul edərək kütləvi məclislərin, o cümlədən şadlıq məclislərinin keçirilməsinə icazə verdi. Həmin məclislərdə qaydalara əməl olunmaması yoluxanların və xəstələnənlərin sayının çoxalmasına səbəb oldu. Şübhəsiz ki, bu, artımın əsas səbəblərindən biri də yoluxuculuğu yüksək olan “Delta” ştamminin yayılması ilə bağlıdır”.

Yoluxma sayının artması vaksinasiyanın istənilən sayda aparılmaması ilə bağlıdır. Belə ki, indiyədək 2,5 milyona yaxın vətəndaşa iki doza peyvənd vurulduğunu nəzərə alsaq, bu, ölkə üzrə təqribən 24 – 25 faiz edir. Əslində o qədər də yüksək rəqəm deyil. Pandemiyanın dayanması üçün isə əhalinin 70 – 80 faizinin peyvənd edilməsi lazımdır. Elə bu rəqəmlərdən görmək olur ki, ölkəmizdə peyvənd edilənlərin sayı pandemiyanın bitməsi üçün yetərli deyil. Professor A.Qurbanov bildirib ki, Azərbaycan COVID – 19 əleyhinə vaksinasiyaya ilk başlayan ölkələrdən biridir. Təəssüf ki, prosesin əvvəlində əhali arasında ona adekvat münasibət yox idi. Lakin son vaxtlar peyvənd aparılan məntəqələrə kütləvi axının olması münasibətin yaxşılığa doğru dəyişdiyini, əhali arasında vaksinasiyanın əhəmiyyətini və vacibliyini qiymətləndirənlərin çoxaldığını göstərir. Kütləvi yerlərə COVID pasportu olmayanların buraxılmaması da zərurətdən irəli gələn məsələdir. Çünki həmin məkanlar yoluxmanın yayıldığı əsas yerlər hesab olunur. Həmin məkanlarda bir nəfər xəstə onlarca sakini yoluxdura bilər. Burada yeganə məqsəd yoluxma sayının çoxalmaması və ölüm hallarının olmamasıdır. Bu tədbir vətəndaşları istənilən məkana məhdudiyyətsiz daxil olmağa və əvvəlki həyata qayıtmaq üçün vaksinasiyaya bir növ motivasiya edir.

Professorun fikrincə, peyvənd olunmaq bizim vətəndaşlıq borcumuzdur. Peyvənd olunmaqla təkcə özümüzü deyil, ətrafdakıları da qorumuş oluruq. Ona görə də yaşı 18-dən yuxarı olan hər kəsin peyvənd vurdurması lazımdır, zəruridir və vacibdir. Ölkəmizdə ən geniş istifadə olunan Çinin “SinoVac” şirkətinin “CoronaVac” peyvəndidir. Bu, kifayət qədər effektli, tərkibi öldürülmüş COVID viruslarından ibarətdir. Onun vurulması zamanı öldürülmüş virus orqanizmə düşür, heç bir xəstəlik, əlavə və yan təsirlər törətmir, orqanizmdə həmin virusa qarşı immunitet yaradır. Bu, bizi canlı viruslardan, xəstələnmədən qoruyur. Hər bir peyvəndin içərisində olduğu kimi, onun da daxilində istehsalçı tərəfindən vaksinin tərkibi, ona olan əks-göstərişlər və əhəmiyyəti barədə həm Çin, həm də ingilis dillərində məlumat var.

İnsanlar bəzən vaksinin yan təsiri olacağından ehtiyat edib peyvənd vurdurmaqdan çəkinirlər. Əminliklə demək olar ki, istər Azərbaycanda, istərsə də digər ölkələrdə milyonlarla insan həmin peyvəndi vurdurub və indiyədək onların arasında fəsadlaşma halı qeydə alınmayıb. Ətrafımızda gəzən canlı virusdan ehtiyat etməyənlər peyvəndin tərkibində olan cansız virusdan niyə ehtiyat edirlər? Professor deyib: “Nəzərə almaq lazımdır ki, peyvəndləmə tibbin inkişaf etməyə başladığı ilk dövrlərdən insanları kütləvi yoluxucu xəstəliklərdən xilas edən yeganə vasitə olub. Vaxtilə təbii çiçək adlandırılan xəstəlik var idi. 1978-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı həmin xəstəliyin peyvəndləmə nəticəsində ləğv edildiyi barədə məlumat verdi. Halbuki təbii çiçək xəstəliyi COVID-dən də çox qorxulu və təhlükəli xəstəlik idi, 40 – 50 faizə qədər ölümlə nəticələnirdi. Hazırda dünyaya gələn körpələrə ona qarşı da peyvənd vurulur. Məsələn, hepatit B əleyhinə, difteriya, göyöskürək, qızılca, məxmərək kimi xəstəliklərə qarşı lap uşaqlıqdan peyvənd edilir. Onların hansında buna görə fəsadlaşma baş verib? Peyvəndin faydası ondan ibarət olub ki, həmin öldürücü xəstəliklər onların həyatından yan ötüb. COVID əleyhinə olan peyvənd də elə həmin prinsiplərlə hazırlanıb. Bəzən onun tez hazırlanmağı ilə əlaqədar narahatlıqlar olur. Biz texnologiyalar əsrində yaşayırıq. On illər bundan qabaq illərlə vaxt sərf edilən iş indi bir ilə, hətta beş-altı aya da başa gəlir. Elə həmin texnologiyalar hesabına da indi hər şeyi daha tez və daha sürətli etmək olur”.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***